AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

Q Ə R A R

№ 8/06

Bakı şəhəri 18 aprel 2025-ci il

**“Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında” 1 №-li forma (Miqrasiya) rüblük (illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 28 iyul tarixli 30/06 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 124-VIIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 275 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 13 yanvar tarixli 15s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 28 iyul tarixli 30/06 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında” 1 №-li forma (Miqrasiya) rüblük (illik) rəsmi statistika hesabatı formasında aşağıdakı dəyişikliklər edilsin:

1.1. “III Bölmə. 20_ ilin ___ rübü ərzində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verildiyi (müddətinin uzadıldığı) hallar üzrə sayı, nəfərlə” bölməsi üzrə cədvəlin 474-1-ci sətrinə “mütəxəssis” sözündən sonra “və ya yüksəkixtisaslı miqrant” sözləri əlavə edilsin;

1.2. “X Bölmə. Hesabat dövrünün sonuna Azərbaycan Respublikası ərazisində iş icazəsinin alınması tələb olunmayan hallar üzrə qeydə alınmış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı, nəfərlə” bölməsi üzrə cədvələ aşağıdakı məzmunda 1265-ci sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Yüksəkixtisaslı miqrantlar (mütəxəssis olduğu sahə üzrə fəaliyyət göstərdikdə) | 1265 | | |

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Əmək statistikası və Əhali statistikası şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsinlər.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**